# "Tamaşaçıların Nəbi Xəzri dramaturgiyasına həmişə ehtiyacı var"

**Böyük şairimiz Nəbi Xəzri təkcə poetik yaradıcılıqla deyil, dramaturji fəaliyyətlə də məşğul idi. Onun müxtəlif illərdə Azərbaycan Dövlət Akademik Milli Dram Teatrında dram əsərləri səhnəyə qoyulub və tamaşaçılar tərəfindən böyük rəğbətlə qarşılanıb. Nəbi müəllimin bir neçə pyesinə Xalq artisti, görkəmli rejissorumuz Mərahim Fərzəlibəyov quruluş verib. Mərahim müəllimlə görüşüb Nəbi Xəzri ilə bağlı xatirələrini "Ədəbiyyat qəzeti"nin əməkdaşları ilə bölüşməsini xahiş etdik.**



**- Mərahim müəllim, bilirik ki, siz ötən əsrin 80-ci illərində Nəbi Xəzrinin bir neçə pyesinə quruluş vermisiniz. Bu pyeslərin hər birinin səhnə həlli uğurlu olub, uzun müddət teatrın repertuarından düşməyib, tamaşaçılar tərəfindən sevilib. İstərdik ki, o günlərə qayıdaq, unudulmaz şairimizlə iş birliyinizdən danışasınız. Necə oldu ki, Nəbi Xəzri dramaturgiyasına müraciət etdiniz?**

- Mən Akademik Milli Dram Teatrında rejissor kimi çalışdığım dövrdə Nəbi müəllim tez-tez teatra gələrdi, biz mütəmadi olaraq onunla görüşərdik. Hələ Sumqayıt Teatrında çalışarkən, onun "Günəşin bacısı" və "İki xəzər" poemaları əsasında "Mənim arxalandığım" tamaşasını hazırlamışdım. Görüşlərimizdən birində Nəbi müəllim dedi ki, mən "Əfsanəvi yuxular" adlı bir poema yazmışam, istərdim ki, sən bu poemanı oxuyasan. Mən poemanı oxudum və çox xoşuma gəldi. Əsər "Kitabi-Dədə Qorqud" dastanı əsasında yazılmışdı. Mən Nəbi müəllimə təklif etdim ki, bu poemanın pyes variantını teatr üçün işləsin. Beləcə, birlikdə işimiz başladı. O, mənim təkliflərimi qəbul elədi, əsərdə bir neçə xətt yarandı. O, deyirdi ki, rejissorun fikri mənim üçün çox önəmlidir. Buna qədər Nəbi müəllim heç bir rejissorla işləməmişdi.

Biz demək olar ki, hər gün, ya onun iş yerində, yaxud evində görüşürdük, pyes üzərində iş aparırdıq. "Torpağa sancılan qılınc" dramı beləcə ərsəyə gəldi. Əlbəttə, biz əsərə yeni obrazlar əlavə elədik, Qazan Xanla Burla Xatun səhnələri yeni xətt kimi ortaya çıxdı. Bu əsərə qədər artıq "Dədə Qorqud" filmi çəkilmişdi, geniş tamaşaçı kütləsi artıq bu film ilə tanış idi. Biz çalışdıq ki, filmdən fərqli, tamamilə yeni bir tamaşa hazırlamalıydıq ki, tamaşaçıların marağına səbəb olsun. Nəbi müəllim də bunu çox yaxşı bilirdi. Pyes tamamlanandan sonra teatrın Bədii Şurasında oxundu və alqışlarla qarşılandı. Bədii Şurada pyesin oxunuşundan sonra alqışlarla qarşılanması nadir hadisə idi. Mən Dədə Qorqud obrazına aktyor seçəndə xeyli düşündüm və Həsən Əblucu bu rola dəvət etdim. Onun gözəl diksiyası vardı, qiraətçi kimi tanınırdı. Bu rol onun üçün düşərli oldu, tamaşadan sonra Həsən Əbluc Akademik Milli Dram Teatrına aktyor kimi qəbul olundu. Bir müddət sonra isə teatrda rejissor kimi də fəaliyyət göstərdi, bir neçə tamaşaya quruluş verdi. "Torpağa sancılan qılınc" tamaşası çox böyük uğur qazandı. Tamaşa haqqında müsbət fikirlər səsləndirildi, resenziyalar yazıldı, dəfələrlə Dövlət televiziyası ilə göstərildi. Sonra Nəbi müəllimin "Heykəlsiz abidə" povesti əsasında "Mənsiz dünya" tamaşasına quruluş verdim. Bilirsiniz ki, bu əsər Mirzə Şəfi Vazehin həyatından bəhs edir. 1989-cu ildə Nəbi müəllimin "O uzaq gecə" povesti çap olundu. Əsər 37-ci il repressiyalarından bəhs edirdi. Sovet hökuməti dağılmaq ərəfəsində idi, arxivlər yenicə açılmağa başlayırdı. O povest əsasında "Gecə döyülən qapılar" pyesi ərsəyə gəldi. Hər bir janrın oyun qaydaları mövcuddur, bu tamaşa faciə-elegiya janrında yazılmışdı. Tarixin yaraları çox çətin sağalır, o yaralar bu gün də bizim qəlbimizi ağrıdır. Nəbi müəllim o ağrıları qələmə almışdı. O qara günlərdə həyat öz axarıyla davam edirdi, insanlar deyib-gülür, şənlənirdi, ailə qururdu, böyük arzularla, böyük amallarla yaşayırdı. Bir tərəfdə isə insanlar güllələnir, ömürlər məhv olurdu, onların övladlarının dünyası başına uçurdu. Böyük aktrisamız Amaliya xanım Pənahova Mehri ana obrazını məharətlə canlandırırdı. Bu obraz Amaliya xanım üçün yeni idi, buna qədər o, səhnədə lirik, sentimental obrazlar yaratmışdı. Bu tamaşada isə beş oğul itirmiş ananı oynayırdı. Bu tamaşa da uğurla qarşılandı.

Nəbi müəllim daha sonra "Burla Xatun" dramını teatra təqdim elədi. Bu əsərə mərhum rejissorumuz Vaqif Əsədov quruluş verdi. Sonuncu dəfə isə biz istəyirdik ki, onun "İki xəzər" poeması əsasında neftçilərimizin fədakar həyatından bir mənzum dram hazırlayaq. Bununla bağlı biz vaxtaşırı görüşürdük. Amma təəssüf ki, bu arzunu gerçəkləşdirə bilmədik. Amansız ölüm onu bizdən ayırdı.

**- Nəbi müəllim məşqlərə tez-tez gəlirdi?**

- O, ictimai vəzifə daşıyırdı, vaxtı çox az olurdu. Bununla belə ara-sıra məşqlərdə iştirak edirdi. Çalışırdı ki, mənə kömək eləsin. Aktyorları, məni dinləyirdi və təkliflərimizi də qəbul edirdi, lazım gəldikdə, yeni səhnələr yazıb gətirirdi. Əlbəttə, mənim yaradıcılığımda Nəbi müəllimin dramaturgiyası böyük rol oynadı. Mən ondan çox şey öyrəndim. Onun digər epik poemalarında da dramaturgiya var, bu əsərlərdəki tükənməz ideyalar teatr üçün zəngin mənbədir. Mən çox istərdim ki, gələcəkdə də Nəbi müəllimin hansısa poemasını səhnələşdirim. Oxucular onun lirikasından zövq aldığı kimi, tamaşaçıların da onun əsərlərini səhnədə görməyə böyük ehtiyacı var.

**- Mərahim müəllim, siz Nəbi müəllimin dörd əsərinə quruluş vermisiniz. Yaradıcılıq prosesində Nəbi müəllimi müşahidə etmisiniz. Bununla bağlı hansısa yaddaqalan bir xatirəniz varmı?**

- Əlbəttə. Nəbi müəllim mürəkkəb xarakterə malik insan idi. Mən iş prosesində onun xarakterinə bələd oldum. Çalışırdım ki, onu həmişə dinləyim, dramaturqun ideyasını çatdıra bilmək üçün bu, çox vacibdir. "Torpağa sancılan qılınc" tamaşasının son məşqlərində Nəbi müəllim dedi ki, mən istəyirəm bu səhnələr bir az başqa cür olsun. Mən dedim ki, Nəbi müəllim, məşqlər bitsin, sizin qeydləri mütləq nəzərə alacağam. Bunu deyib məşqi davam etdirməyə başladım. Bir müddət sonra Nəbi müəllim yenə məşqi dayandırdı, öz fikirlərini təkrarladı. Mən yenə məşqə davam elədim. Üçüncü dəfə o, məşqi dayandıranda mən bir az əsəbi tonda dedim ki, Nəbi müəllim, imkan verin, mən işləyim. O, mənim bu sözlərimə çox sərt formada reaksiya verdi. Dedi ki, "işləmək istəyirsən, işlə, amma mən bir də məşqə gəlməyəcəyəm". Dedi və getdi. Bu, mənə pis təsir elədi. Mənim Nəbi müəllimə böyük şairimiz olaraq dərin hörmət və ehtiramım vardı. Məşqlərdən sonra Nəbi müəllimin evinə getdim. Dedim ki, Nəbi müəllim, məndən incidinizsə, mən sizdən üzr istəyirəm. İnciklik aradan götürüldü və o, mənə yeni çapdan çıxmış kitabını bağışladı və belə bir avtoqraf yazdı: "Küsmək istədiyim, lakin küsə bilmədiyim əziz dostum Mərahimə". Təsəvvür edin, o, öz xarakterinin əleyhinə gedərək böyüklük göstərdi və bu avtoqrafla bildirdi ki, rejissorun yanındadır. Nəbi müəllim, bax, belə bir insan idi.

*Söhbətləşdi:*

***Kənan HACI***